# İMAM YOLU

**İmam Hüseyn qiyamı haqqında traktat**

**Namiq Babaxanov**

Bağışlayan və Mehriban Allahın adıyla başlayıram. Bu, “Beş kimsənin sorağında” silsilə yazıların ilk hissəsidir. İmam Hüseyn Ali Əbanın ən kiçiyi olsa da, bu silsilə yazılarımıza Hüseyndən başladıq. Çünki onun Kərbəlası əslində elə bütün Ali Əbanın həm facisəsiydi həm də yenidən doğuşuydu. Quranın “De: Haqq gəldi, batil məhv olmalıdır, həqiqətən də batil məhvə məhkumdur” (İsra- 81) ayəsinin misalı idi 61-ci hicri ilində Kərbəla. Həmişəki kimi şəhidin qanı, qatilinn qılıncına qalib gəldi. Bu bir gerçəkdir, haqq zahirdə məğlub olsa da əslində daim qalibdir, çünki, haqq var olandır, haqq Allahdandır.  Batilsə yoxdur,  Allahın şəriki olmadığı kimi, odur ki, o qələbə də çala bilməz. Batil elə bilir ki o var və o qələbə çalır, Yezid də elə bildi ki, Hüseyni qətlə yetirməklə qələbə çaldı, əslində isə qələbə Hüseynin oldu, onun hədəfləri həyata keçdi, o yaşadı, daim də yaşayacaq. Çünki o həqiqətdi, nə qədər haqq yolu varsa Hüseyn də var.

**Kərbəla çölündə Aşura günü**
baş verənləri daha yaxşı dərk etmək üçün, İslam dininin meydana gəldiyi vaxta və yerə, Peyğəmbərimizin ilk peyğımbərlik zamanına və məkanına, ümumilikdə Ərəbistanın Besət dövründəki vəziyyətinə diqqət yetirmək zəruridir. İstənilən hadisəni dəqiq təhlil etməkdən ötrü, onu daha əhatəli müzakirə etmək vacibdir. Məhz o dövrdən başlanan təhlil İmam Hüseyn hərəkatının həqiqətlərinin tam olaraq üzə çıxmasına, yanlış fikirlərin kənara atılmasına köməkçi ola bilər. Çünki Kərbəla hadisəsinin haqq və batil arasında olan mücadilə olduğunu sübuta yetirmək, İmam Hüseynin dinin,  əslində isə bəşəriyyət səadət yolunun qorunmasına görə vuruşduğunu bəlli etmək, hadisənin əhəmiyyətini tanıtmaq üçün, mütləq Ərəbistanın Besət dövrünə qayıtmaq lazımdır. Çatdırmaq lazımdi ki, o dövrdə  dinin meydana gəlməsi, onun möhkəmlənməsi hansı çətinliklərlə yaranmışdı və təbii ki, Yezid kimi din adı altında İslamı məhvə aparan adamla,  həmin dini qorumaq  ilahi vəzifəsi olan İmam Hüseyn mücadilə etməliydi, bu qaşılmazdı. Din bəşəriyyətin səadət yoludur, İmam Hüseyn dini qorumaqla əslində bəşəriyyətin səadət yolunu, bütövlükdə bəşəriyyəti qorumuş oldu, çünki bəşəriyyət səadətə çatmaq üçün yaradılıb, onun səadət yolu qapanarsa demək o özü də məhv olar. İmam Hüseyn hələ Mədinədə olarkən Mərvan bin Həkəmə söylədi sözlərə dediklərimizin sənədidir: “Müsəlmanların başına belə bir rəhbər gəldisə, demək İslamın sonudur. Babam Peyğəmbər deyərdi: “Əbu Süfyan övladlarına Xilafətdə təmsil olunmaq haramdır. Əgər bir gün Müaviyəni minbərdə gördünüz (o zaman minbər hakim kürsüsüydü) , onu ordan endirin.” Mədinəlilər onu minbərdə gördüyündə ordan endirmədilər, indi Yezid kimi fasiqin rəhbərliyinə mübtəla oldular” (Məqtəl Xarəzmi, c. 1 səh. 185)

**Beləliklə Ərəbistanda Besət dövrü**
haqda çox qısa şəkildə söz açmadan öncə onu qeyd edim ki, bu dəfə Allah öz yeni böyük peyğəmbərini və sonuncu şəriətini dünyanın ən cahil və vəhşi insanları arasına göndərdi. İmam Əli xütbələrinin birində o dövrü belə xatırlayır: "Daşların arasında ilanlarla yaşayır, çirkli bulanıq su içirdiniz. Yalnız bərk qidalar yeyib, bir-birinin qanın tökürdünüz." (Nəhcül-Bəlağə). Allah sonuncu peyğəmbərini belə insanların arasından seçdi, sonuncu şəriətini və səmavi kitabını da ilk olaraq onlara göndərdi. Cansız tanrılara ibadət edən, cahil, vəhşi lakin ədəbiyyat-şersevər insanlar üçün sonuncu səmavi kitab əsl möcüzə idi. Bununla belə onlar çox çətinliklə İslam dinini qəbul etdilər, çoxlu inadkarlıq göstərdilər, çünki xalqa rəhbərlik edənlər yeni dinin haqq olduğunu bilsələr də, bu onların maddı mənfəətinə ciddi təhlükə idi. Bu cahil və vəhşi insanların bu xüsusiyyətlərini sübut etmək üçün təkcə bir məşhur misalı çəkmək kifayət edər, belə ki, onlar öz analarının da bir vaxtlar kiminsə qız övladı olduğunu unudub, qız övladlarına nifrət edirdilər, öz qız balalarını diri-diri basdırırdılar və bunu bir "şücaət" və "kişilik" sanırdılar.  Onlar cahildilər çünki  dərk etmirdilər ki, özləri də vaxtıyla bir qız uşağı olan anadan dünyaya gəliblər və bu günün qızları, sabahın anaları vasitəsilə insanlıq davam tapır. Onlar həm də vəhşi idilər, çünki balaca uşağı diri-diri torpağa dəfn edirdilər. Bax belə insanlar arasında İslam Peyğəmbəri gətirdiyi dini təbliğ etməyə başladı. Tanrılara itaət edən cahil və vəhşi insanları təkallahlılığa, elmə, əxlaqa dəvət etmək, övladını diri-diri basdıranları övlada sonsuz məhəbbət bəsləməyə çağırmağın çətinliyini dərk etmək indi asandır, amma zamanında qeyri-mümkün kimi görünürdü. Tarixdə sonradan müsəlman olan Haris adlı şəxsin məsciddə Peyğəmbərə öz qızını necə diri-diri basdırdığını danışması əhvalatı məşhurdur. O Rəsuli Əkrəmin günah və tövbə haqqındakı xütbəsindən sonra ona yaxınlaşdı və zamanında nə qədər böyük günah etdiyini söylədi: "Cahiliyyət dönəmində bir qız övladım dünyaya gəldi. Amma o dünyaya gələndən sonra onu öldürməyə əlim gəlmədi, lakin bir müddət keçəndən sonra o böyüdü və evimdə bir qız uşağının olduğundan qəbiləm də xəbər tutdu. Onlar mənə tənə vurmağa, qız övladının bir ləkə olduğunu deməyə başladılar. Mən bu dedi-qodulara dözə bilmədim, bir gün həyat yoldaşımdan uşağı hazırlamağı istədim və onu anamın yanına qonaq aparacağımı söylədim. 3-4 yyaşlı qızımla səhraya gəldim, mən onu basdırmaq üçün dərə qazıdım, qızım dərədən çıxarıdğım torpaqlarla oynayırdı, sonra əllərini bağladım, onu dərəyə atdım, üstünə torpaq tökdüm. Əvvəldə hələ də onunla oyandığımı düşünürdü, lakin sonradan qorxdu və "niyə mənimlə belə edirsən" deyə soruşdu, səsini kəsməkdən ötrü əlimdəki kürəylə başına vurdum, gözümdən yaş gəlsə də ona rəhm etmədim". O danışdıqca Peyğəmbərin gözündən yaş cari olurdu, o Həzrət sonra ona belə söylədi: "Allah tövbəkarların günahını

bağışlayır, amma sən çalış məndən uzaq dur, çünki məh hər dəfə səni görəndə o övladın gözümdə canlanacaq". Süzsüzdür ki, Peyğəmbərin Allah tərəfindən qız övladı ilə müjdələnməsində, Fatimeyi Zəhranın övladlarının vasitəsilə nəslinin davam tapmasında da böyük bir ibrət var. Allah öz elçisinə də qız övladı bəxş etdi, nəsli onunla davam tapdı. Ümumiyyətlə isə İslam şəriətində nəslin qız övladları və ya oğul övladları ilə davam etməsinin heç bir fərqi yoxdur. Çox təəssüf ki, qız övladlarına ögey münasibətə, təhsildən uzaq qalmalarına, hətta onların varlığından utanma hallarına indi də cəmiyyətdə rast gəlinir, cahillik və vəhşilik hələ də davam edir.

**İslamın yayılması,**
bu ilahi nurun, nicat yolunun insanlara çatdırılması çox çətin şəraitdə, min əzab əziyyətlə Peyğəmbərin və onu az saylı tərəfdarlarının vasitəsilə baş verdi. İslam dininin tanıtdırılması, yayılması, inkişaf etdirilməsi yüzlərlə inanclı insanın şəhadətə yetməsi, zindanlara atılması, ac-susuz qalması, evindən-eşiyindən didərgin düşməsi, mal-dövlətinin əlindən çıxması hesabına oldu. İslamı qəbul etdiyinə görə valideynlərinin öz gözü qarşısında qətlə yetirilməsinə yana-yana dözən Əmmar Yasirin müsibəti, vaxtıylə Məkkənin ən varlı insanlarından olan Xədiceyi Kubranın müsəlmalığa görə öz yurd-yuvasından qovulanlarla birgə Əbu Talib dərəsində ac-susuz qalması, müsəlmanların öz vətənlərindən məcbur olub hicrət etmələri və onlarla belə faciələrin hesabına İslam dini yayıldı, təbliğ oldu, ayaq tutdu. Nəhayət Allahın inayətilə Peyğəmbər özü də Məkkədən hicrət edib Mədinədə ilahi hökumətini qurdu. Yəsribin (Mədinənin) Ovs və Xəzrəc qəbilələrinin təkallahlığı qəbul edib Peyğəməri ora dəvət etməsiylə İslam Xilafəti İslam dininin din və dövlətçilik müddəaları əsasında, o Həzrətin özü tərəfindən quruldu, bu dinin həm möhkəmlənməsi, həm də inkişafı üçün çox önəmli bir addım idi. Bununla artıq İslam dinin aradan getməsi təhlükəsi azalmışdı, dinin əməli olaraq inkşafı üçün daha geniş imkan var idi. İslam Xilafəti İslam qanunları ilə idarə olunurdu, bununla da Peyğəmbər İslam dinin tam olaraq nümunə göstərə bilirdi, İslam Xilafəti bir İslam nümunəsi idi.

**Peyğəmbərin vəfatı və bununlada yaranan ciddi böhran**
gözlənilən idi, Rəsuli Əkrəm özü də bu təhlükəni hiss edirdi və qabaqlayıcı tədbirlər görürdü, amma çox təəssüf ki, İslamın gücünü təşkil edən adi və sadə müsəlmanlar məsələni əhəmiyyətini tam dərk edə bilmədi, müsəlmanlar tam ümmət kimi formalaşmadan parçalandı. Təbiidir ki, o cür cahil və vəhşi insanlar

İslam dinini qəbul etdikləri bu qısa müddət ərzində hər incəliyi, sabahla bağlı addımları tam olaraq dərk edə bilməzdilər. Peyğəmbər müsəlmanlar arasında, hətta öz ətrafında olan ikiüzlü, riyakar, münafiq insanları, onların daxili xislətlərini tanısa da zahiri davranışlarına görə onları cəzalandıra bilmirdi. O, bilirdi ki, ilk fürsətdə bu insanlar dini və müsəlmanları öz mənfəətlərinə xatir istifadə etməyə hazırdılar. Ona görə də ancaq qabaqlayıcı tədbirlər görməkdən başqa heç nə edə bilmədi, bu qabaqlayıcı addımları isə qeyd edildiyi kimi dünənin cahil və nadan insanları tam olaraq dərk etmədi, əhəmiyyətinə varmadı. Əslində Peyğəmbər dəfələrlə Quran və İtrəti (Əhli-beyti) yanaşı gətirib, ən qiymətli əmanəti kimi müsəlmanlara tapşırmaqla sadə müsəlmanlara böyük bir yolu adi dillə izah etmişdi. Nəhayətdə ən aşkar yolla tanıtım Qədir Xum hadisəsi oldu, bu hadisə həm ilahi göstəriş, həm Quranın hökmü idi. Peyğəmbər bunu inslanlara çatdıranda minlərlə insan onu eşitdi, lakin zamanı çatanda bir neçə nəfərdən savayı heç kəs bu ilahi əmrə həyata keçirilməsinə dəstək vermədi. Onlar Allahı da, Quranı da, Peyğəmbəri də, Əlini də sevirdilər, sadəcə məsələnin əhəmiyyətini dərk edə bilmirdilər və bununla da Peyğəmbərin vəfatından sonra böhran başladı və məhz bu böhran müsəlmanların Qədir Xum hadisəsinə əhəmiyyət verməməsindən baş verdi. Qədir Xumda Peyğəmbərin söylədikləri həyata keçsəydi İslam və müsəlmanlar bu günə qədər davam edən böhranı yaşamayacaqdı. Qədir Xum hadisəsi İslamın birliyi, davamiyyəti, qorunması və inkişafı demək idi. Bu hadisə İslamın təkcə Qurani Kərimdən deyil, həm də hədisdən ibarət olması deməkdi, Quranla Peyğəmbər və onun pak Əhli-beytinin bərabər tutulması anlamındadır. Qədir Xum hadisəyilə Peyğəmbərimiz özündən sonrakı təkcə mənəvi rəhbərliyi deyil, həm də İslam Xilafətinin - zahiri rəhbərliyini təyin etdi. Qədir-Xum imamət və məsum imamların ilahi yolla təyin olunması deməkdi. Qədir Xum hadisəsi Peyğəmbərdən sonra müsəlmanların himayəsi, dinin qorunması deməkdi. Məsum imamların vəzifəsi məhz budur, imamların vəzifəsi İslamı qorumaq olub, dini qorumaq dini gətirmək qədər əhəmiyyətli olub, imamlar məhz bu vəzifələrini, ilahi missiyalarını icra ediblər. Ona görə məsum imamların əməllərindən düzgün nəticə almaq üçün onların həyatını ayrı-ayrı deyil, bir uzun ömürlü insan həyatı kimi təsəvvür etmək lazımdı. Məsum imam öz vəzifəsini bəzən səbr edib xəlifələrin yanında olub onların əməllərini islah etməklə, bəzən düşmənlə sülhə getməklə, bəzən qiyam etməklə, bəzən maarifləndirməklə, bəzən xəlifənin vəli-əhdi olmaqla, bəzən də qeybə çəkilməklə icra edib və dini qoruyub. On iki imamdan cəmi bir imam – Hüseyn bin Əli qiyam edərək dini qoruyub, şəhadətə yetən digər imamların – on imamın heç biri bu yola əl atmayıb. Zaman-zaman cahil müsəlmanlar hətta qiyam etməyi imamətin şərti biliblər, Zeydin yanında durub onu imam sayıb, maarifçiliklə məşğul olan İmam Baqirin imamətini qəbul etməyiblər, “imam qiyam edəndi” deyib haqdan dönüblər.

**Raşidi Xəlifələr**

dövründə İslam dinin qorunmasında İmam Əlinin nə qədər əhəmiyyətli rola malik olması heç kəsə sirr deyil, dinimizi Peyğəmbərin vəfatından sonra yaranmış böhrandan çıxarmaq, qorumaq vəzivəsi bir imam kimi Əli bin Əbu Talibin öhdəsindəydi və o özündən əvvəlki üç xəlifə vaxtı sırf İslamı qorumaq məqsədilə onların hərkətlərini islah etmək, bəzən onları qorumaq üçün əlindən gələni edirdi. Məsələn üçüncü xəlifə Osmanı terrordan qorumaq üçün o öz övladları ilə bu işin qarşısını almağa çalışdı və bacardığını etdi, çünki Qədir Xum hadisəsi unudulsa da xəlifələr İslam xilafətinin başında dururdular və zahirdə İslama riayət edirdilər, odur ki, İmam Əli belə vəziyyətdə xəlifəni qorumaqla dini qoruyurdu. Bundan əvvəl də o ona qarşı olan haqsızlığa, Peyğəmbərin qızının qətlinə yana-yana susdu, çünki İslam dini məhv olma və aradan getmə təhlükəsiylə üzləşə bilərdi. İmam Əli əlindən gələni edirdi ki, İslam Xilafəti, bu din adına olan Peyğəmbər dövləti qorunsun, bununla da İslam qorunurdu. Dinin qorunmasında Peyğəmbərin qurduğu xilafətin rolu əvəzsizdi, buna xatir də İmam Əli ona və Peyğəmbər ailəsinə olan hörmətsizlik və cinayətlərə dözürdü. Əli nəhayət uzun illərdən sonra haqqı özünə qayıdanda da, Xəlifə olanda da əsas hədəfi İslamın qorunması olduğu üçün bu yolda çox səbr etdi. Ümumiyyətlə İmam Əlinin həyatında səbrin xüsusi bir izi var, o əsl səbr şahı idi. Fikrimcə onun haqqında belə demək olar ki, o dini səbrlə qoruyurdu. İslam düşmənləri Peyğəmbərdən sonra da İslam dinini yer üzündən bir dəfəlik silmək istəyirdilər, İslamın dünyada sürətlə yayılması, təkallahlıların çoxalması bütün dövr və zamanlarda əks tərəfin düşmənçiliyinə səbəb olub. İmam Əli peyğəmbərdən sonra şəhadətə yetənədək dini qorudu, bu işdə əsas köməkçisi səbri oldu. İmam Əli barədə, onun səbri haqqında “Beş kimsənin sorağında” silsilə araşdırmaların “Səbr şahı” bölümündə oxumaq olar, inşallah.

**Raşidi xəlifələrindən İmam Həsən Müctəba**

da var. Həsən bin Əli xilafətdə qısa zamanda oldu, vəziyyət elə gətirdi ki, Müaviyənin sülh təklifini qəbul etmək məcburiyyətində qaldı. O, İmam Əli zamanında tarixdə ilk dəfə İslam xilafətini qəbul etməyib, ona tabe olmayan, özünü “İslam xəlifəsi” elan edən Əməvilər sülasinin nümayəndəsi və Əməvi ərəb xilafətinin ilk başçısı Əbu Sufyanın oğlu Müaviyə ilə sülh edib müvəqqəti olaraq xilafəti ona həvalə etdi. Bu sülhə məcbur olan İmam Həsənin hədəfi də dinin qorunması idi, çünki bu həssas zamanda dini qorumağın yeganə yolu Müaviyənin sülh təklifini qəbul edib, qırğını saxlayıb, dini və ümməti qorumaq idi. İmam Həsən böhranı fürsətə çevirib, bundan ümmət üçün faydalı yolu seçdi, düşmənin

təklifini qəbul etdi, sülh bağlamaqla məğlub durumdan qalibə çevrildi. Əgər bu sülh müqaviləsi olmasaydı Müaviyə Mühəmmədin dinini tam olaraq məhv edə bilərdi, çünki həqiqi müsəlmanlar çox zəifləmişdi, İmamın döyüşəcək tərəfdarı qalmamışdı. Müaviyə qələbəsinin bir addımlığındaykən sülh təklif edir, əvəzində isə xilafəti istəyir, İmam bu sülh təklifini qəbul edir, xilafəti ona verib, imamət və vilayəti qoruyur. Çünki dini hifz edən, ümməti saxlayan imamət və vilayətdir. Zahiri xilafət isə zatən Peyğəmbərdən sonra son beş ilə qədər imamların əlində deyildi.

**İmam Həsənin sülhü, İmam Hüseynin qiyamının başlanğıcıydı,**
o dur ki, Aşuraya çatdıq. Qeyd etdiyimiz kimi, bu sülh müqaviləsilə bir haqq hərəkatına zəmin yaratdı və son nəticəsi İmam Hüseynin hərəkatı oldu. Əslində İmam Həsənin Müaviyə casusları tərəfindən zəhərlənərək qətlə yetirilməsinin bir səbəbi də onun (İmam Həsənin) məhz bu qiyama hazırlaşması idi. Müaviyənin zahirdə islami davranış və rəftarlara riayət etməsi bu qiyamın vaxdını uzadırdı, çünki Müaviyə əsl simasını gizlədirdi və üzə çıxarmırdı, xülasə zaman yetişmirdi. O özü də bilirdi ki, bir gün səhv edəcək və İmam Həsən bu səhvini dünyaya elan edib onun yalançı və İslam donuna bürünən İslam düşməni olduğunu, müsəlmanları aldatdığını, İslam Xilafətini qəsb etdiyini elan edib ona qarşı qiyam edəcək, çünki din xətərdə olanda məsum imam öz tərəfdarları ilə canını da verəcək, İslamı xilas edəcəkdi. Müaviyə isə islamda yaranan ilk etiqadi məzhəblər “Xəvaric” və “Mürciyə”ni məharətlə faydalanaraq hakimiyyətdə qalmağı bacarırıdı. Xəvarici müxtəlif yollarla aldadaraq məsum imamlarla savaşa təhrik edib, öz ətrafında və hakim olduğu sərhədlər daxilində mürciyəliyi təbliğ edirdi. O xəvaricin “əgər günah etdinsə kafir olub, dindən çıxdın” düşüncəsiylə, mürciyənin “hər nə günah etmisənsə bir nəzir verməklə, cümə namazına getməklə, qurban kəsib paylamaqla bağışlanırsan” təfəkküründən məharətlə elə müsəlmanların özünə qarşı istifadə edirdi.  O, imamları dindən çıxmış kimi tanıtdırmaqla, sonra onları qətlə yetirməyin günahının bir qurban kəsməklə bağışlanacağı təbliğatı ilə müsəlmanları cinayətə yönəldirdi. Çox təəssüf ki, insan cahil olanda hər sözə, təbliğata inanır. Bu elmsizlikdən irəli gəlmirdi, düşüncəsizlikdən əmələ gəlirdi, əsl cahil, elmsiz deyil, düşünməyənə deyilir. Bu Quranın məntiqiylədə belədir. Müsəlmanlar çox təəssüf ki, zaman-zaman belə təbliğatların qurbanı olub, böyük faciələrə imza atdılar. Cahil insan daim düşmənin cinayətinə vasitə olur.

**İmam Həsənin sülhündən Yezidin xilafətinə qədər**

baş verən hadisələr tarixilik baxımından çox əhəmiyyət kəsb edir və İmam Hüseynin qiyamına bir başa aidiyyəti var. Qeyd etdiyimiz kimi İmam Həsən Müaviyə ilə sülhə razılıq verməklə müvəqqəti olaraq xilafəti ona tapşırdı, çünki o dövrdə Müaviyə ilə savaşa girib şəhadətə yetmək İslamın sonu ola bilərdi. Müaviyənin dinsizliyini, dinə düşmən olduğu sübut etmək qeyri-mümkün həddə idi, Müaviyə hiyləgərliyi ilə buna nail olmuşdu, o özünü müsəlmanlar arasında Yezid kimi ifşa etmir. Müaviyə dinə zahirdə riayət edirdi, əks halda məhv olacağını bilirdi. Hətta Müaviyə zamanında "din inkişaf etdi" deyənlər də var idi, çünki məscidlər oxunurdu, azan verilirdi, cümə namazlaraı qılınırdı, Quran tilavət edilirdi, Həccə bərpa idi, oruc tutulurdu, fəthlər var idi, yeni məscidlər tikilirdi. Hətta bəziləri zamanında İmam Həsənə sonradan İmam Hüseynə etiraz edirdilər: "Niyə Əməvilərdən, - Müaviyə və Yeziddən narazısız?! Məscidlər oxunur, azan verilir, cümə və camaat namazları qılınır, Həcc izdihamlı keçirlir, islam fəthləri davam edir, istənilən adam İslamı rahatca qəbul edir ..."
Bəli, doğrudur, zahirdə din var idi, amma iman yox idi, ibadət olunurdu, amma günah və haram da adi hal idi, Quran vardı İtrət yox idi, yəni din naqis idi. Din tam olanda insanllara fayda verir, naqis din təhrif olunmuş dindir və heç kəsi həqiqi səadətə çatdırmaz. Gerçək din sandıqları əslində saxta din idi, həqiqətə aparan həqiqi din məhdudlaşmışdı, reallıq həqiqətdən uzaq idi. Minbərlərdə Allaha həmd sənadan, Peyğəmbərə salam salavatdan sonra onun Əhli-beytinə, Hz. Əliyə lənət demək şərt, hədis söyləmək qadağan idi.  Amma bu saxta dindarlıqla Müaviyə din görüntüsü yaratmışdı, bu əməvi xilafətinin sonuna qədər davam elədi. Bu din görüntüsünü ifşa edən, həqiqi dinin nə olduğunu xatırladan İmam Hüseyn qiyamı oldu, o Muhəmmədin dininin həqiqi simasını itirilməsinə yol vermədi.
Qeyd etdiyimiz kimi əslində Müaviyə İmam Həsənə sülh təklif etməklə, bu müqaviləyə imza atmaqla məğlub oldu, çünki o  zaman az, pərakəndə və satqın tərəfdarları ilə qalan İmam Həsənlə sülh bağlamayıb müharibə etsəydi bəlkə də əsl niyyəti oan Muhəmmədin dininin məhv olmasına nail ola bilərdi. Müaviyənin yuxarıda qeyd etdiyimiz qurduğu düzəni yalnız Əhli-beyt imamları ifşa edərək, müsəlmanların hamısının aldanmamasına səbəb olurdular. Qısası İmam Həsənlə sülhə imza atmaqla Müaviyə  Ali Əbusüfyanın sonunun başlanğıcına qol qoydu. Əlbəttə Müaviyə sülh müqaviləsini elə ilk zamanlardan hissə-hissə pozmağa başlamışdı, yəni o atdığı imzaya sadiq qalacaq adam deyildi. Amma İmam Həsən üçün bu sülh müqaviləsi böyük fürsət oldu, o, həqiqi müsəlmanları qorudu, toparladı və bununlada dini və ümməti hifz etdi. İmam Həsən özünü və saf tərəfdarlarını yenidən bir araya gətirmək, toparlamaq üçün bu sülh müqaviləsindən tam faydalandı. Sülh müqaviləsindən sonra İmam Həsən Mədinəyə qayıdır, özünü və tərəfdarlarını ətrafına yığır, İslam Xilafətini, dini xilas etməkdən ötrü Müaviyəylə savaşa hazırlaşırdı. Eyni zamanda baxmayaraq ki, Müaviyə sülh

müqaviləsinin şərtlərini pozurdu, İmam müqaviləyə riayət edirdi, həm də Müaviyənin iç üzünün açılmasını gözləyirdi ki planlaşdırdığı haqq savaşı həyata keçirsin. Müaviyənin dəfələrlə Mədinəyə İmam Həsənə göndərdiyi məktublar da bunu sübut edir, çünki Müaviyə həmin məktublarda İmamı sülhə riayət etməyə və qiyama, savaşa cəhd göstərməməyə çağırırdı. Nəhayət sülh müqaviləsi bitməsinə az zaman qalmış Müaviyənin casusları İmamın həyat yoldaşını aldadaraq onun əliylə Həzrəti zəhərləməyə nail olurlar. Peyğəmbərin buyurduğu "Həsən və Hüseyn Cənnət gənclərinin ağasıdır" hədisindəki Həsəni Müaviyə öldürtdü, hədisdə adı keşən Hüseyni isə Müaviyənin oğlu Yezid öldürtdürür.

**İmam Həsən şəhid olur,**

amma haqq mücadiləsi davam edir, Müaviyə indi də İmam Hüseyn kabusunu yaşayır, ədalət tərəfdarları həmişə zülmkarların kabusuna çevrilib, yuxularını ərşə çəkib, rahatlıqlarını pozub. İmam Həsənin işini İmam Hüseyn davam etdirir. Müaviyə isə bir az da qabağa gedərək İmam Həsənin şəhadətindən sonra Yezidi özünə vəli-əhd yəni özündən sonrakı xəlifə təyin edir. Müaviyə sülhnamənin "Müaviyə xilafəti İmam Həsənə o yoxdusa İmam Hüseynə qaytarılmalıdır" bəndinə riayət etməyib oğlu Yezidi özündən sonra İslam Xilafətinin başında görmək istəyir. Hiyləgər Müaviyə qeyd etdiyimiz kimi ölənə qədər zahirdə, davranışlarında İslama və xəlifəyə layiq görüntülü hərəkətlər edirdi və tam olaraq İslamı məhv etmək niyyətini üzə çıxara bilmirdi, çünki o da yaxşı bilirdi ki, məsumların vəzifəsi dini qorumaqdır və o həddini aşmasıyla tam məhv ola bilər. Müaviyənin vaxtında həqiqi dinə, Quranın hökmlərinə, Peyğəmbər Əhli-beytinə, onların tərəfdarlarına böyük təzyiqlər var idi, lakin dinin ardan gedib, məhv olma xətəri yox idi, çünki Müaviyə sülhə əsasən özü dini saxlamağa məcbur idi. Dövran beləcə keçir, Müaviyə öz çirkin niyyətlərinə çatmadan atası Əbu Süfyan kimi İslamı məhv edə bilməyib arzusu ürəyindəcə bu dünyadan gedir, Xilafət onun vəli-əhdi Yezidə çatır. Lakin Yezid xəlifəliyini leqalaşdırmaq üçün tanınmış adamların ona aşkarda beyət eləməsini təmin etməliydi, vəli-əhdlik üçün edilən beyətlər xəlifəlik üçün kifayət etmirdi. Yenə də tanınmış üç nəfər onun qarşısında xilafətə gedən yolu əngəlləyir, ancaq onlardan birini dünyala aldatmaq asandı, Abdullah bin Ömər elə sonradan bu yolla da Yezidlə razılaşır. Abdullah bin Zübeyri də hər nə cürsə susdurmaq, qətlə yetirmək asandı və onun qətli cəmiyyətdə heç bir qeyri-adi səsküyə səbəb olmayacaqdı. Amma Hüseyn bin Əli qəsbkar və zülmkar Yezid üçün ciddi maneədir. Müaviyə ölüm yatağında bu üç nəfərlə necə ehtiyatlı davranmaq haqqında Yezidə vəsiyyət də edir. Xülasə, "mən ölümü səadət, zalımlarla birgə yaşamağı isə zillət bilirəm" deyən İmam Hüseyn, sözsüz ki, zalımlar üçün böyük maneə idi. (Tuhəful-uqul, səh 245)

**Yezid kimdir,**

bu suala cavab tapmaq o qədər də çətin deyil, Yezid nə babası Əbu Süfyan, nə atası Müaviyə qədər zahirdə də olsa belə dinə riayət etmirdi, o bunu lazım bilmirdi. Yezid elə zənn edirdi ki, artıq atası kimi zahirdə və davranışlarda dinə riayət etməyə ehtiyac yoxdur, çünki artıq xilafət tam olaraq mənimsənilib və Əməvilərdən kənara çıxmayacaq. Odur ki, aşkara dində haram sayılan əməlləri dinin başında dura-dura həyata keçirirdi. Məsələn o aşkarda İslamda haram buyurulan əməllərdən olan əxlaqsızlıqla öz sarayında aşkar məşğul olur, hamının haram bildiyi zina əməlini etməkdən çəkinmir, sarayda padşahlar kimi açıq aşkar kef məclisləri təşkil edir, aşkara qumar oynayır, şərab içir və sair haram əməllərə həyata keçirirdi. Ən əsası isə bunu gizlində etmirdi, aşkarda, saray adamlarının, saraya gələn qonaqların, müsəlmanların gözü qarşısında edirdi. Müaviyə sağlığında Yezidin bu əməllərinin aşkarda olmasının qarşısnı alırdı və bunun acı nəticələri ola biləcəyini Yezidə xatırladırdı. Yezidsə gənc və sərməst bir insan olduğundan bunlara inanmırdı. Müaviyə öləndən sonra isə Yezidin hərəkətlərinin həddi olmadı və əməlləri sürətlə Xilafət daxilinə yayıldı. Yezid babası və atası kimi münafiqliklə yanaşı, aşkarda fəsad da edirdi, bu isə onun çirkin niyyətli olduğuna bir sübut idi. Yezidin bu fəsadlarını bir sıra Əməvi xilafətinin tərəfdarlarından olan var-dövlət sahibləri digər şəhərlərdə də təkrar etməyə cürətlənmişdilər. Yezidin nigarançılığı qeyd etdiyim üç adamdan, əsasən də İmam Hüseyndən idi, çünki Yezid yaxşı bilirdi ki, İmam Həsənlə sülh müqaviləsini pozublar, hətta İmam Həsən özü sağlığında savaş etmək istəyirdi. Odur ki, ilk işi İmam Hüseyndən öz xilafətinin təsdiqinə beyət almaq idi, məhz ona görə Müaviyə ölən kimi onun ölüm xəbərini yayılmadan, öz nümayəndəsindən ilk olaraq İmam Hüseyndən beyət almağı  tələb edir. Yezidin nümayəndəsi - Mədinə valisi Yezidin göstərişi ilə Müaviyənin ölüm xəbərini Hüseynə çatdırmalı və ondan Yezid üçün beyət almalı idi, əks təqdirdə Hüseyn bin Əli elə valilikdə qətlə yetirilməliydi. Bəli, Yezid valiyə "əgər beyətdən boyun qaçırsa İmam Hüseyni qətlə yetir" əmrini vermişdi. İndiyə qədər məsumların qətlinə gizli və dolayısı yolla əmr olunurdusa bu dəfə Yezid - İslam Xilafətini qəsb edib başında oturan şəxs ilk dəfə aşkar şəkildə Peyğəmbərin nəvəsinin qətlinə fərman verir. O ilk və son xəlifə idi ki, bu işi aşkar fərmanla həyata keçirmək istəyir. Sözsüz ki,  İmam beyət etmir, Mədinə valisi Vəlid bin Ütbə hər nə qədr cinayətkar olsa da İmamı öldürmək kimi ağır fəsadı yerinə yetirmir, əlbəttə burda İmam ilə gələn və kənarda onu gözləyən silahlı Bəni Haşım tərəfdarlarının da rolu oldu. İmam Rəcəb ayının 28 gecə Mədinədən Məkkəyə hərəkət edir, Hüseynin karvanı yola çıxır, həmin gecədən qiyam başlayır. İmam Hüseynin həmin gecədə, Peyğəmbərin qəbrindəki

münacatından “Allahım, bu sənin Peyğəmbərin Muhəmmədin qəbridir və mən Sənin Peyğəmbərinin qızı Fatimənin oğluyam. Qarşılaıdığım vəziyyətdən agahsan. Allahım Sən bilirsənki mən yaxşılıqları sevir, pisliklərdən nifrət edirəm. Ey Cəlal və Kərəm sahibi olan Allah! Qarşısında durduğum bu qəbr sahibinin ehtiramına xatir, qarşıdakı ylolumu Sənin və Peyğəmbərinin razılığında qərar ver!” (Məqtəl Xarəzmi, c. 1 səh. 186)
İmam Hüseyn Mədinədən ayrılarkən tilavət etdiyi ayələrdən biri bu idi, sanki bu ayə məhz bu gecə üçün nazil olmuşdu: “De: Mən Rəbbimdən açıq-aydın bir dəlilə (Qurana) istinad edirəm. Siz onu yalan hesab etdiniz. Sizin tələm-tələsik istədiyiniz məndə deyildir. Hökm ancaq allahındır. Haqqı yalnız o bəyan edər. O (haqqla batili) ayıranların ən yaxşısıdır.” (Ənam, ayə 57)

**Başlandı,**
əslində İmam Hüseyn Mədinə valiliyinə dəvət olunanda vəziyyəti anlamışdı və artıq müqəddiməsi İmam Həsənin sülhüylə başlanan dinin xilası, tohidin qorunması hərəkatı bununla başlandı. Çünki İmam Yezidin kimliyini yaxşı bilirdi və Müaviyənin ölümüylə onun aşkar fəsadlarının artmasından da xəbərdar idi, artıq Yezidin əməllərinə çəki-düzən verən atası yox idi. Xilafətin başında belə bir aşkara dinə riayət etməyən şəxsin oturması tohid dinini xətərə salırdı, onun aşkar fəsadları ilə nəinki əcnəbilər heç müsəlmanlar da artıq dinə hörmət etmirdi, dinin başında duran rəhbəri, Peyğəmbərin yerində oturan şəxs aşkara dinə riayət etmirsə, sadə insanlar ona heç riayət etməyəcəkdi və din bununla da aradan getmə təhlüksəiylə üz-üzə qalmışdı. Əvvəldə qeyd etdiyimiz, o çətin Besət dövründə min bir əziyyətlə ortaya çıxan, yayılan İslam dini artıq xətərdə idi. Biz ona görə əvvəldə qeyd etdik ki, İmam Hüseyn qiyamını tam dərk etmək üçün Besət dövründən başlamaq lazımdır. Çünki minlərlə insanın əzab-əziyyəti, qanı bahasına ərsəyə gələn İslamı, Yeziddən qorumaq lazım idi, bu da məsum imamın vəzifəsidir, ilahi missiyasıdır. Bu dəfə bu vəzifəni icra etmək üçün tək yol qiyam idi. Ya Yezid İslam Xilafətindən uzaqlaşmaqla din qorunacaq, ya da bütün müsəlmanlar bilməlidir ki Yezid müsəlmanlığa və dinə ləkədir, onun oturduğu kürsü artıq İslam Xilafəti deyil əslində saxta din pərdəsinə bürünmüş adi ərəb səltənətidir. Xilafətin başında İslama sadiq adam olanda o islam xilafəti olur, islama düşmən bu məqamın başına keçibsə bu artıq “İslam Xilafəti” adlana bilməz. İmam, Yezidi əzl edə bilməyəcəyi təqdirdə hətta bütün dünyaya İslam xilafətinin Müvaiyəyə qədər olması və ondan sonra  Müaviyə tərəfindən işğal olunaraq ərəb səltənətinə çevrilməsini tanıtdırmalıdır və o bunu edir. Odur ki İmam qiyam edir, dini qorumaq üçün ya Yezidi xilafətdən salmalı, ya İslamı xilafətdən ayırmalıdı və İslam xilafətinin raşidi xəlifələrdən sonra  Əməvilər sülaləsi tərəfindən işğal olunduğunu sübut etməklə

dini xilas etməlidir, bu onun ilahi vəzifəsidir, bu tohid bayrağının nicatıdır. Odur ki uzun illərdənbəri hazırlanan dinin xilası qiyamını başlayaraq İmam zalıma hücum edir. İmam Hüseyn vəsiyyətində özü öz qiyamını belə anladır: “Mən nə təkəbbürlük, nə xoşgüzəran, nə fəsad və nə də zülm üçün Mədinədən hərəkət etmədim. Əksinə, mənim bu hərəkatdan məqsədim insanları yaxşılıqlara dəvət etmək (əmr bilməruf) və pisliklərdən çəkindirməkdir (nəhy ənilmünkər). Bu hərəkatla ümməti fəsaddan islah etmək, babam Peyğəmbərin sünnəsini, atam Əli bin Əbutalibin minhacını (yolunu) canlandırmaq istəyirəm. Bu həqiqəti qəbul edib mənimlə birgə olanlar Allah yolunu qəbul ediblər. Mən yolumla davam edəcəyəm, bu həqiqəti qəbul etməyənlərə səbr edib, dözəcəyəm, ta ki, mənimlə onlar arasında Allah hökm edə, ən yaxşı hakim Odur”. (Məqtəl Xarəzmi, c. 1, səh. 188)

**Dindarlıq Tanrı mərkəzli olmayanda**

heç bir mənası qalmır, çünki məhz belə olanda, yəni din adamları Tanrı və ya Allah mərkəzli yaşayışa sahib olanda din insanları əbədi səadətə çatdırır, dünya həyatında sıxıntılardan üzü ağ çıxarır. Belə olmayanda, yəni dindarlıqda Tanrı mehvərlik, Allah mərkəzlik yoxdursa, bər-bəzəkli ibadət ocaqlarının, dəbdəbəli məscidlərin, kütləvi ziyarətlərin, birgə və ya fərdi ibadətlərin, kəsilən qurbanların mənası qalmır. Bütün bunlar insanı Allaha yaxınlaşdırmır, Allaha yaxınlaşmaq üçün dinin cövhəri olan Allah mərkəzli həyat qorunmalıdır. İbadətlə günah bir yerdə olanda faydasız olur,  hətta böyük fəsadlara gətirib çıxarır. Dinin əsas sözü: İbadət, günahlardan uzaqlıq, başqalarına yaxşılıqdır. Bunlara birgə əməl edəndə və ya ən azından buna səy göstərəndə insan Allah yoluyla gedə bilir. Bunun biri olmayanda digərinin mənası qalmır. Allaha ibadət, Allahın haram buyurduqların uzaqlıq, Allahın bəndələrinə yaxşılıq – hər addımında əsas Allah olanda, Allahı nəzərə alanda, Allahı yad edəndə, Onun buyurduğuna uyğun rəftar edəndə insan mənəviyyatın, insanlığın, bəndəliyin zirvəsinə ucalır, həyat məna tapır. İslam dini bütövlükdə təkallahlı dinlər sırf ibadət rituallarından ibarət deyil, insan üçün həyat tərzidir. Müaviyənin qurduğu xilafət sistemində bu yox idi, zahiri görünüş, saxta dindarlıq geniş rəvac tapmışdı, ibadət əhli rahatca günah edir, sonra Həccə gedir, cümə namazı qılır, nəzir verir günahlarının yuyulduğunu zənn edirdi. Allahın hüccətinin qətlə yetirənlər namazını bir dəqiqə gecikdirmirdi, halal qidalanırdı, zəkat verirdi ...  Rəvayətlərdə gələn “bir gecədə yetmiş peyğəmbəri öldürüb, sonra səhər heçnə olmamış kimi ibadətini edib, ticarətə başlayanlar”ın misalı Müaviyə zamanında müsəlmanlar arasında geniş yayılmışdı. İnsanlara zülm edir, haqqını əlindən alır, sonra sanki heç nə olmamış kimi özlərini mömin zənn edirdilər. O zamanki Kufə cammaatının əksəriyyəti də belələrindən idi,  Müaviyənin qurduğu

bu düzənin qurbanları olan “möminlər”dən idilər, saxta dindarlığın bariz nümunələri idilər.

**Kufə camaatının dəvəti,**
İmam Hüseyn qiyamın gedişatına təsirsiz qalmadı. Qiyam edən şəxs onu dəvət edən və ondan müdafiə edəcəklərini söz verən inandığı insanların dəvətinə təbii ki müsbət cvab verməlidir, kufəlilər də məhz qiyama başlamış İmam Hüseyni belə dəvət etdilər, kufəlilər Müaviyənin öülümnüdən sonra Yezidə beyət etməmişdilər, qiyam edib Mədinədən çıxan İmam Hüseynin xəbərini alan kimi isə toplaşıb İmamı Kufəyə dəvət etmək qərarına gəldlər. Kufə İmam Hüseynə doğma idi, İmam Əlinin xəlifəliyi dövründə İslam Xilafətinin paytaxtı hərbi və digər strateji əhəmiyyətinə görə Kufə olmuşdu, orada Peyğəmbər övladlarının tərəfdarları çox idi. İmam Hüseyn təbii ki bu dəvətə müsbət cavab verir, Mədinədən Məkkəyə üz tutmuş qiyam karvanı istiqamətini Məkkədən Kufəyə tutmalıydı. Məkkədə qiyam üçün münbit şərait yox idi, hər yerdə Yezid tərəfdarları olan cəlladların İmamı terror etmək təhlükəsi var idi, Yezid bu qiyamı baş tutmamış, nəticəyə çatmamış boğmaq istəyirid. İmam Hüseyni isə əksinə qiyamın qələbə ilə nəticələnməsinə nail olmalıydı, hətta bu özünün və əzizlərinin qətli və faciəsi bahasına olsa da belə çünki, dinin qorunması, tohid bayrağının daim dalğalanması üçün ya Yezid xilafətdən getməli ya da onun tutduğu postunun İslamdan kənarlığı ifşa elan olunmalıydı. İmam kufəlilərin dəvətinə müsbət cavab versə də ora elçilər göndərdi və vəziyyətin müsbət olduğu xəbərini alandan sonra Kufəyə tərəf istiqamət götürdü. Lakin elçilərinin İmama yazılan məktublarından sonra başlarına nə müsibət gəldiyini, kufəlilərin xəyanətini artıq Kufə yolunda bildi. İnandığın insanın xəyanəti çox ağır olur, hətta ölümə bərabər bir hal yaradır insanda. İmam Hüseyn bu xəbəri alanda bir cümlə dedi: “Bu dünyanın daha xeyr - bərəkəti qalmadı” yəni dünya həyatına məna verən inam, etibar, sədaqət, düzgünlük, əhdə vəfadır. Bu yoxdursa dünyanın mənası da yoxdur.

**İmam Hüseyn Kufədən acı xəbər alsada istiqaməti dəyişmədi,**
bu onu göstərir ki onun qabaqcadan hazırladığı qiyam planının icra yeri elə İraq istiqaməti idi, bəlli olur ki, İmam əvvəla kufəlilərin dəvətindən öncə də o istiqaməti planlaşdırmışdı. Ona görə də kufəlilərin vəfasızlığından və dönüklüyündən xəbərdar olandan sonra da istiqamətini dəyişmir. Bu sirdimi, hikmətdimi bəlli deyil, tarix üçün isə bəlkə də hələ də açılmayan bir səhifədir. Əlbəttə bu barədə çox lunəzərlər də var, amma İmamın kəlamlarında bu barədə bir söz yoxdur. Ancaq bir fakt faktlığında qalır ki İmam kufəlilərin vədələrinə əməl

etməyib, onun elçisi Müslüm bin Əqilin qətlə yetirilməsindən xəbərdar olandan sonra artıq dəqiq bilirdi ki, Yezidi taxtdan salmaq çətin olacaq, yalnız bir seçim qalır.

**İslam xilafətini əməvi hakimiyyətindən ayırmaq,**
bu artıq qaçılmazdır və məhz bu yolla dini qorumaq. İnsanlar bilməliydilər ki İmam Əli və İmam Həsəndən sonra İslam xilafəti Əməvilər tərəfindən işğal olunub və Yezidin, hətta atası Müaviyənin İslam xilafətinə bütövlükdə dinə heç bir aidiyyəti yoxdur, din İmam Həsəndən sonra xilafətdə təmsil olunmayıb. Peyğəmbərin qurduğu İslam Xilafəti İmam Həsənin xəlifəliyinin sonuna qədər davam edib və dinin qorunması, müsəlmanlara mənəvi rəhbərlik və himayəsi Qədir Xumda ilahi göstərişlə Peyğəmbər tərəfindən təyin olunan Əli və onun övladlarının öhdəsindədir və İslam dinini onlar təmsil edir. Qeyd etdiyimiz kimi, İmam kufəlilərin vəfasızlığından sonra istiqamətini dəyişmədi, yenə də Kufəyə tərəf yoluna davam etdi. Şəhadət və bu yolda çətinliklərin baş verəcəyini bilib öz tərəfdarlarını bundan agah edirdi, çünki belə ilahi missiyanın həyata keçməsində fədakarlıq edənlər son dərəcə azadlıqla bu yolu seçməliydilər. Məhz əqidə və eşqlə atılan addımlar uğura və əbədiyyətə səbəb olur. Odur ki, İmam Məkkədən sonra öz karvanıyla gedərkən üç dəfə otraq etdi və hər dəfə öz tərəfdarlarını azad seçim qarısında qoydu, qənimət və dünya dalınca gələnlər ondan ayrılırdı. Kərbəla karvanında saflaşma prosesi gedirdi, Aşuraya saf din tərəfdarları qaldı, hətta borcu olanları və ya boynunda başqa vacibi haqqun-nas olanları, zehnində şəkk, şübhə, sual qalanları İmam bu nur karvanından uzaqlaşdırırdı. Artıq Aşura gecəsi İmamı heç kəs tərk etmədi çünki, gedənlər getmişdi, qalanlarsa dini bu dünyadan üstün tutanlar idi.

**Zəhhak bin Əbdullah Məşriqi nə gedənlərdən oldu nə qalanlardan.**
O, İmam Hüseyni Kufə yolunda görür, öz dostu Malik bin Nəzr ilə Həzrətin xeyməsinə yaxınlaşır, Kufənin acı xəbərlərini onlar da İmama çatdırır. İmam “həsbiyəllah və niməl vəkil” deməklə kifayətlənir. Sonra hər ikisinə onunla bu qiyam səfərini davam etməyə çağırır, hər ikisi ailə uşaqlarının, həyat çətinliklərinin olduğunu bildirir, xülasə sonu şəhadət olan bu yolda özlərini görmədiklərini qeyd edirlər. Birdən Zəhhak deyir: “İmam mən sənə lazım olduğum qədər kömək edərəm, amma artıq sənə bir faydam dəyməyəndə, səndən ayrılacağam”. Elə də olur, İmam onunla razılaşır, Aşura günü fədakarcasına da döyüşür, amma artıq Əhli-beyt yaxınlarından başqa bütün qoşun şəhid ediləndən sonra, İmamdan döyüşdən çıxmaq izni alır və xeymənin arxasında bağladığı atına minib,

xeymələrin arxasından meydandan uzaqlaşır. Yolda Omər Sədin atlıları ona çatsa da, kufəli olduğunu görüb tanıyırlar, döyüşdən uzaqlaşdığı üçün ona toxunmurlar. O əsir düşməyib sağ qalan ilk İmam Hüseyn köməkçilərindən olur. Qalan ömrünü Kərbəlada baş verənlıəri nəql etməklə keçirir.

**Əvvəldə gedənlərdən, sonra qalanlardan olan**

Züheyr bin Qeyn Bəcəli Kufənin tanınmış qəbilə başçılarından idi, xəlifə Osman bin Əfvanın müridlərindən sayılırdı. Müaviyənin dönəmindən işlərini yaxşıca sahmanlamışdı və dünyasını tam təmin etmişdi. Məkkədə olanda İmam Hüseynin də orda olduğunu bilim ondan yan qaçırdı. Təsadüfən o da zilhiccə ayının 8 də Həcc əməlləri başlamamış ordan uzaqlaşdı, yolda İmam Hüseyn Karvanıyla tez-tez rastlaşsa da fasilə saxlayırdı. Xüzeymiyyə məntəqəsində otraq edərkən İmamın karvanı da orda otraq etdi. Qəfildən İmamın qasidi xeyməsinə yaxınlaşdı və İmamın onu söhbətə dəvət etdiyini bildirdi, Züheyr görüşməkdən boyun qaçırsa da həyat yoldaşı onu Peyğəmbərin nəvəsilə görəşməyə ikna etdi. İmamla Züheyrin nə danışdığı bilinmir, xeyməyə qayıdandan sonra şəxsi döyüş əşyalarını toplayıb, xanımına təlaq verib, vəsiyyətini edib İmama qoşuldu. Kərbəlada İmam Hüseynin sağ cinah qoşunlarının başçısı oldu, şücaətlə döyüşüb şəhadətə yetdi, O əvvəldən ora qədər olan həyatında Əhli-beytlə yol getmirdi, amma adı İmam Hüsenlə qalanlardan oldu. Belə hadisələr düşünən insanlar üçün Kərbəlanı tanımağa yardım edir.

**Übeydullah Covfi**

isə İmam Hüseynin dəvətinə baxmayaraq ona qoşulmaqdan imtina etdi. İmam onun şəxsi xeyməsini Bəni Məqatil məntəqəsində gördü və qasidini göndərib onu görüşməyə dəvət etdi. Übeydullah məhz İmam Hüseynə kömək etməmək üçün Kufədən çıxdığını və onunla görüşmək istəmədiyini bildirdi. İmam özü onun xeyməsinə getdi, Übeydullah bin Hürr ona eyni cavabı verdi və əlavə etdi: “Sənin yanında olsam, öləcəyəm, mən isə ölmək istəmirəm, odur ki səninlə gəlməyəcəyəm. Amma mənim bir yaxşı qaçan atım var, hələ indiyə qədər onunla hansı hədəfin ardınca getmişəmsə ona çatmışam, o atımı sənə hədiyyə edə bilərəm”. İmam ondan üz döndərib ona belə cavab verdi: “Nə sənə, nə sənin atına ehtiyacım yoxdur.” Və “Kəhf” surəsininin 51-ci ayəsini oxudu: “Yolunu azmışlardan kömək istəmirik” Sonra əlavə etdi: “Amma burdan uzaqlaş, nə bizimlə ol nə bizə qarşı ol, bizim fəryadımızı eşidib cavab verməyi Allah üzü üstə cəhənnəmə atar.” Übeydullah bin Hürr Covfi sonradan bu hərəkətindən peşiman olub, Muxtarın qiyamına qoşuldu, sonra qoşun yığıb Muxtara qarşı çıxdı. Daha

sonra Müsəblə birləşib zübeyrilərdən oldu və Muxtarla vuruşdu, sonradan Müsəbə qarşı çıxdı, nəhayətdə Kərbəla hadisəsindən 7 il sonra 68 ci hicri ilində çayda boğulub öldü.

**İmam Hüseyn karvanında qadınlar və uşaqlar**

həmişə araşdırmaçıların marağında olub və diqqəti cəlb edib. Ümumiyyətlə isə bu məsələni diqqətlə araşdıranda görərik ki, bu karvana daxil olanları arasında sanki xüsusi bir seçim olub, İmam özüylə mübarizə yoldaşlarını tək-tək seçirdi desək məncə yanılmarıq. Yuxarıda buna bir neçə misal gətirdik. Bəzi şəxsiyyətinə şübhə etmədiyimiz məsələn Məhəmmədi Hənəfiyyə kimi insanların ona qoşulmasına mane olan İmam Hüseyn, ondan kənar qaçan insanları təkidlə özünə tərəf çağırırdı, eyni zamanda onu tərketmək istəyənlərə fürsət də verirdi. Beləliklə Kərbəla qiyamının simaları arasında bir nəfərdə təsüdüfü, kor-koranə İmama dəstək verən adam yox idi, hamısı ağıl, əqidə, azad şəkildə bu karvana qoşulmuşdular. Təbii ki, belə də olmalıydı, dini, tohidi və bəşəriyyəti xilas edəcək insanların sırasında bir nəfər də olsun təsadüfü adam qalmamalıydı, bu onları əbədiləşdirən bir amildir. Bəllidir ki, İmamın yaxın və uzaq qohumları o cümlədən ailə üzvləri, qadınlar və uşaqlarda bu karvana daxil idilər, yuxarıda deyilənləri nəzərə alsaq deməli İmam öz qadın və uşaqlardan ibarət olan ailə üzvləri və qohumlarını da bu karvana təsadüfən daxil etməmişdi. Qiyama başlayan insan, hətta yarı yolda atdığı addımın faciəilə nəticələnəcəyini, hədəfə qanla çatacağını bildiyi halda qadın və uşaqları karvanda saxlayırsa demək qadınlar və uşaqlarda bu qiyamın iştirakçısıdır və onların da öz missiyası var.

İmam yaxşı bilirdi ki, Yezid ya onu gizlincə terror etmək ya da kimsəsiz bir biyabanda qətlə yetirmək niyyətindədir. İmam gizlində qətlə yetirilmək istəmirdi və buna görə də Məkkədə Həcc əməllərini tamamlamayıb, ehramdan çıxandan sonra oranı tərk etdi, çünki Yezidin cəlladları İmamı Məkkədə terror etmək istəyirdi. İmam qiyam etmişdi bu qiyamın səssiz boğulması fürsətini Yezidə verməzdi, odur ki, Məkkədən çıxdı, istiqamət Kufə idi. Ümumiyyətlə də qeyd edilən kimi İmamın qiyamının ünvanı İraq, Kufə istiaməti idi,  hətta kufəlilər onu dəvət etməsəsydi belə, bir neçə il Kufədə yaşamaları, atası və qardaşının xəlifəlik dövründə Kufənin İslam Xilafətinin mərkəzi olması, orada çoxlu Əhli-beyt tərəfdarlarının varlığı ona bu yeri seçməyə sövq etmişdi. Odurki o kufəlilərin əhdinə vəfasız çıxdığlarını, dəvətdən sonra onun göndərdiyi elçiyə qarşı amansız rəftar etmələrini bildikdən sonra yenə istiqamətini dəyişmədi. Daha doğrusu İmam qiyama başlayandan sonra Məkkədə ona kufəlilərin dəvət məktubları çatdı, Kufəyə çatmamış isə kufəlilərin dönüklüyü, Bin Ziyadın Kufəni ələ alması, İmamın Kufəyə ardıcıl yolladığı üç səfiri – Müslim bin Əqil, Qeys bin Müsəhhər Seydavi,

Əbdullah bin Yəqtər şəhadətləri karvanın istiqaməti dəyişmədi, rota Kufə qaldı. Təbii ki, Yezid hadisəni yəni İmamın qətlinin səssiz keçməsini və cəmiyyətin bundan gec və üstündən bir qədər keçmiş xəbər tutmasını istəyirdi, üstəlik qatillərində gizli qalması və ya hakimiyyətə aid olmaması planını cızmışdı. Ancaq İmam Hüseyn qiyam edirdi o istənilən halda hədəfə çatmalı idi, bu işdə Yezid ifşa olunmalıydı və bunulada Yezid dinə heç bir dəxli olmadığı hamıya elan olunmalıydı. Bu ilahi hədəf idi onunçun İmam lazım olduğu təqdirdə öz canından keçməyə, əzizlərinin müsibətinə də razı idi. Yezidin İmam Hüseyn və tərəfdarlarını kimsəszi bir biyabanda, heç adi ticarət karvanlarının da yol almadığı bir səhrada qətlə yetirməklə bu hadisəni səssiz qalmasına çalışırdı. İmam isə Neynəva çölündəki bu səssiz baş verən hadisənin dünyaya çatdırmaq itəyirdi. Yezidin "səssiz, şahidsiz və dəlil-sübutsuz İmamı qətlə yetirmək" planını Aşura karvanındakı qadınlar və uşaqlar puç edəcəkdi, müsibətin şahidi, olunan zülmün carçısı olaraq karvandakı qadın və uşaqlar idi. İmamın bacısı, Əli və Fatimə ailəsinin övladı Hz. Zeynəb İmam Hüseyn qətlə yetiriləndən sonra həmin zamanda ağır xəstə olan öz qardaşı oğlu İmam Səccadla birgə bu müsibət karvanına rəhbərlik etdi, karvanın sağ qalan qadın və uşaqlarla birgə, Aşura həqiqətlərini dünyaya çatdırmaq missiyasını üzərinə götürmüşdülər. Bu çox ağır və məsuliyyətli bir ilahi vəzifə idi, İmamHüseyn baş verənləri Allahın qədəri bilib yolda bacısına belə söylədi: “Allah nəyi qədərimiz edibsə, o mütləq olacaq”. Kərbəla müsibəti özünü təhlükəyə atdığı üçün baş verən qəza deyildi, ilahi vəzifəsinə əməl edənin qədəriydi.

**Yezidin ifşası**

bu qiyamın hədəfə çatması üçün çox mühüm idi. İmam aşkarda fəsad əhli olan Yezid və tərəfdarlarına fürsət verməklə, onları haqqa dəvət etməklə həm insanlıq və imamlıq borcunu yerinə yetirirdi. Hər dəfə zalımlar İmama etiraz etməklə özlərini ifşa edirdilər, bununla da çirkin niyytələrini bir daha büruzə verirdilər. Xülasə, İmamın qiyam karvanı Kufə yaxınlığına çatanda qarşısı alındı və ona Kufəyə tərəf irəliləməyə icazə verilmədi, heç geri qayıtmağa da qoymadılar, qətlə də yetirmədilər. Çünki Kufə yaxınlığı bu planın həyata keçməsi üçün münasib deyildi, bu məkan Kufəyə gedən karvanların yolunun üstü idi, xəbər tez yayıla bilərdə, bununla da müsəlmanlar Yezidin Peyğəmbər ailəsini qətlə yetirməkdə günahlandırardı və dinsizliyi bir daha aşkar hamıya sübut olardı. Odur ki İmamın karvanına yalnız bir istiqamətə - Neynəva çölünə, Kərbəla səhrasına getmək üçün koridor açdılar, Yezidin tərəfdarları bilmirdilər ki, İmam buna da hazırdır və karvandakı qadın və uşaqlar məhz buna görə onunla həmrahdılar, çünki o qiyam edir və qabaqcadan hər çətinliyə hazırlıqlıdır. İmam Hüseyn Məhərrəm ayının 2 ci

günündə Kərbəlaya çatdı, Kərbəla çölünün çökəkliyində çadırlarını qurdu, bunu da qaydaların əksinə etdi, çadırlar adətən belə vəziyyətdə hündürlükdə qurulmalıydı. İmamın bu hərəkətinin iki səbəbi var idi. Birincisi, İmam düşmən qoşununun, onun qarşısını kəsib onu Kərbəlaya istiqamətləndirən min nəfərlə tamamlanmayacağını bilirdi, o bilirdi ki, Bin Ziyad bura daha çox qoşun göndərəcək. Bəlkə də bu işin xeyrinəydi bu hadisə hər nə qədər çox adamın gözü qarşısında baş versəydi Yezid bir o qədər daha çox ifşa olacaqdı, hətta bu adamlar düşmən qoşunundan olsaydı belə. İmam ailə və uşaqlarında olduğu çadırları çökəklikdə qurdurdu, istərmidi minlərlə namərd, mərd karvanında başverənləri gözləriylə rahatca müşahidə etsinlər. Digər səbəb isə uşaqların qanlı meydanda baş verə biləcək səhnələri görməməsiydi. Uşaqların zatən öz müsibəti vardı, İmam qətlə yetiriləndən sonra cadırlara və eyni zamanda qadın və uşaqlara olan vəhşiliyi onsuzda görəcəkdilər. O Xanın Zeynəbə, yalnız ona döyüş meydanını izmələmk üçün xüsusi bir hündürlüyə çıxmağı məsləhət bilmişdi. Hər şey Yezidin dinsizliyini aşkar etmək üçün idi, dinsiz dinə rəhbər ola bilməzdi, Yezid xilafətdədisə deməli artıq xilafət İslam Xilafəti deyil. Odurki İmamın Yezid qoşunu ilə Aşuraya qədər apardığı dialoqu, onlara qadın və uşaqlara toxunmamağı, İmam Hüseyn karvanının tamamilə içməli sudan məhrum etməməyi tövsiyyə edirdi. Yezid tərəfdarlarını öz çirkin əməllərindən çəkinməsi çağırışları Yezidin anba-an dinsizliyi və fasidliyini aşkar edirdi. Onlar İmamın söylədikləriylə razılaşmadıqca kimlikləri, məqsədləri bəlli olurdu. İmam Hüseyn və tərəfdarlarının başına gətirilən müsibətdə Yezidin bir başa əli var idi, Bəsrə və Kufənin valisi Ubeydullah bin Ziyad hər addımı onula razılaşdırırdı. İmam Hüseyndən sonra Zeynəbi Kübra və İmam Səccad öz davranışları ilə Yezidin dinsizliyini, fasid və zalimlığını tam sübuta yetirdilər, hətta təkcə müsəlmanlar deyil, bütün dünya anladı ki, artıq bu xilafət İslam Xilafəti deyil, Əməvilər tərəfindən qəsb olunmuş hakimiyyətdir, Ərəb Xilafətidir. Ona görə hətta tarix kitablarında belə Peyğəmbərdən sonra İmam Əli və İmam Həsənə qədər "İslam Xilafəti" Müaviyə və Yeziddən başlayaraq "ərəb xilafəti" adlanır və ərəb xilafətinin əleyhinə çıxmaq dinin əleyhinə çıxmaq sayılmır. Dünya Raşidi xəlifələrinə başqa münasibət, onlardan sonrakı xəlifələrə fərqli münasibət bəsləmiş oldu, bu İmam Hüseyn qiyamınnın nəticəsiydi və dinin qorunması idi. İmam Hüseyn özünün və əzizlərinin qanı və müsibəti bahasına buna nail oldu. Yezid o qədər ifşa oldu ki Şamda törətdiyi cinayətlərin hamısnı Bəsrə və Kufə valisi Übeydullah bin Ziyadın boynuna atdı, amma xeyri olmadı, kimin kim olduğunu artıq hamı bilirdi. Xanım Zeynəbin Yezidə "Biz Kərbəlada gözəllikdən başqa heç nə görmədik" yəni Allah yolunda müsibətdə gözəldir deməsi. İmam Səccadın azan vaxtı azançının "Əşhədu Ənnə Muhəmmədən Rəsulullah" deməsindən sonra, azanı saxlayıb "Yezid, Muhəmməd sənin babandır ya mənim" sualını verməsiylə Yezidin bir din düşməni olmasını elan elədi və bu İmam Hüseynin qələbə

sədalarıydı. İmam Hüseyn və tərəfdarlarına Xanım Zeynəbin və İmam Səccadın rəhbirliyi ilə tarixin ilk əzadarlıq mərasimin qurulmasına razılıq vermək məcburiyyətində qalan Yezid, bundan sonra şəhidlərin kəsilən başlarını əsirlərə qaytardı və onlar Mədinəyə Kərbəla çölündən döndülər, başları bədənlərin yanında dəfn edib İmam Hüseyn və digər şəhidlərinin ilk Ərbəin əzadarlığını qeyd etdilər, amma bunlar hamısı hələ sonra olacaqdı.

**Kərbəlada baş verənlər**

isə bəşər tarixinin ən qanlı səhifəsi idi. Məhərrəm ayının ouncu günündə - Aşurada, İraqın Neynəva səhrasında Kərbəla çölündə hələ misli görünməmiş bir faciə baş verdi. Məhərrəm ayının 2-də Kərbəlaya çatan İmam Hüseyn karvanı həmin ayın 7-ci günündən susuz qaldı. Düşmən qarşı tərəfi məğlub etmək üçün ən şərəfsiz yola əl atdı, su yolunu bağladı. Aşura gününə qədər cəmi bir dəfə Əbul-fəzl Abbasın kiçik bir qrupla gedib döyüşərək az bir miqdarda su gətirə bildiklərini tarixdən oxuyuruq. 150 nəfərdən çox insan, dörd gün susuz qaldılar, havanın isti, ərazinin səhralıq olduğunu nəzərə alsaq bu bir dəhşət idi.

Aşuradan bir gün əvvəl Yezidin tərəfdarları axşamüstü hücuma keçir, İmam Hüseyn səhərə qədər möhlət alır. Həmin gecə tərəfdarlarına seçim azadlığı verir, lakin onu heç kəs ərk etmir. Reallığın deyil həqiqətin tərəfdarı olan bu insanlar, səhərə qədər Allahla razi-niyaz, dua, münacat, namaz, Quran oxumaqla üns qururlar. İmamı yol boyu çox tərk edənlər oldu, təqribən 1500 nəfərlə Məkkədən çıxan Hz. Hüseyn karvanı Kərbəlaya 150 nəfər civarında insanla çatdı, bunlar artıq Allah tərəfindən bu müqəddəs yol üçün seçilmişlərdi.

Hadisənin qeyri-insani olması haqqında danışmazdan öncə onu qeyd etmək zəruridir ki, İmam Hüseyn karvanında təqribən sayı 80- 120 nəfər arası əli silah tutan insan var idi, bundan əlavə o dövrdə ağır xəstə olan İmam Səccaddan savayı 40 nəfərdən də yuxarı əli silah tutmayanlar - qadın və uşaqlar vardı. Düşmən tərəfin isə qoşunlarının sayı ən azı 10 000 nəfər idi, amma buna baxmayaraq İmam Hüseyn tərəfdarları Aşura günü – səhər dan yeri sökülәndən axşamüstünə qədər – gün batanadək müqavimət göstərdilər. İmam Hüseyn fədailərinin ilk şəhidi ilə son şəhidi arasında gün çıxandan – gün batanadək zaman fasiləsi oldu. Günorta azanına qədər İmam Hüseynin yaxınlarından – Peyğəmbər qohumlarından hələ heç kəs döyüşə getməmişdi, Əhli-beytin müsibəti günorta namazından sonra başladı, amma hər bir Kərbəla döyüşçüsü son dərəcə məharətlə döyüşür, fədakarcasına şəhid olurdu. Bu günün əsas qəhramanı isə İmam Hüseyn idi şücaət və fədakarlıqla

döyüşür, zülmkarların kabusuna çevrilir və hər dəfə də düşmənə Əlinin oğlu olduğunu sübut edirdi.
Bu hadisənin faciəvi hissəsi elə məhz İmam Hüseynin yaxınlarına olan zülmlərlə başladı, Yezid qoşunları xüsusi amansızlıqla İmamın oğlu Əli Əkbəri atdan yerə yıxılandan sonra tikə-tikə doğradılar. İmamın qardaşı İmam Həsənin kiçik yaşlı iki övladını - Qasimi və Əbdullahı zülmlə öldürdülər. İmamın körpə  südəmər Əli Əsğər balasının da vəhşicəsinə oxla başını bədənindən ayırdılar. Bunlar bi faciəin başlanğıcı idi. İmamın qardaşı Əbülfəzl Abbasın qeyri döyüş şəraitində,su gətirərkən əvvəlcə əllərini kəsdilər, sonra elə faciəyə qətlə yetirdilər ki, cənazəsini digər şəhidlərin yanına aparmaq mümkün olmadı, elə düşdüyü yerdə dəfn etdilər. Bunlar başda olmaqla zalımlar İmamın yaxınların, Peyğəmbərin qohumlarını xüsusi amansızlıqla qətlə yetirdilər, onlarla qeyri-insanı, vəhşicəsinə davranmaqla sanki qisas alırdılar.
Ən dəhşətli şəkildə İmamın özünə hucum edilməsi, diri-diri başının kəsilməsi, şəhid olanların cənazələrinin hamısından başlarını kəsərək niyzələrə taxılıb şəhər-şəhər gəzdirilməsi, cənazələrin üzərindən at çapılması, meyyitlərin dəfn olunmasına izn verilməməsi, bu hadisənin faciəviliyindən xəbər verir.
Bu gün İmam Hüseynə əza saxlayanlar məhz hadisənin bu məqamlarına diqqət yetirərərk əzadarlıq edir və ağlayırlar. Qeyd etdiklərimiz Kərbəla hadisəsini adi döyüş müstəvisindən faciəyə çevirən məqamlardı, axı adi döyüşdə körpə uşağı, 10-15 yaşlı yeniyetməni qətlə yetirmirlər, diri-diri insanın başını kəsmirlər, cənazələri qarət edib onları təkcə bir alt paltarıyla buraxıb, başlarını bədənlərindən ayırıb nizələrə taxıb şəhər-şəhər gəzdirmirlər, cənazələrin üstündə at çapmırlar, meyyitləri isti qumlar üzərində atıb getmirrlər, şəhidlərin yerdə qalan ailələrinə hücum edib onları döyüb, xeymələrini yandırıb, qarət etmirlər, bu artıq döyüş deyil, faciədi, vəhşilikdi, qeyri-insani rəftardı. Döyüşdən sonra şəhidlərin ailələrinə, uşaqlarına hücum edib, onları qarət etmək, əşyalarına, çadırlarına od vurmaq, onları əsir edib, əli-qolu zəncirli, çılpaq dəvələrə mindirib şəhər-şəhər gəzdirmək faciədir. Nəzər alsaq ki, bunlar Peyğəmbərin ailəsinin üzvləridir və Yezid təfədarları bunlarla İslamdan əvvəlki cahil ərəblər davranışını sərgiləyirlər, onda məlum olur ki, bu faciəni törədənlərin yalnız adları müsəlman idi, qəlblərində imansızlıq, düşüncələrində bütpərəstlik hakim idi. Bu sadaladığlarımız faciə formaları Kərbəla hadisəsinə soyqrım statusu verir.
Düşməni tanıdığından İmam Hüseyn baş verəcək hadisələri qabaqcadan ehtimal verir və Yezid tərəfdarları ilə danışanda onları azad insan, mərdanə, kişi kimi rəftar etməyə çağırırdı, çox təssüüf ki onlar dinsiz olmaları ilə yanaşı nə mərd, nə də azad insan idilər. İmam isə bütün bu faciəyə baxmayaraq öz yolunu getdi və qələbə çaldı, dini yaşatdı, tohidi hifz elədi, həqiqəti tanıtdı.

**Bu bir imam yoluydu,**
hansı məsum belə bir şəraitlə qarşılaşsaydı eyni hərəkəti edərdi. Bu yazı araşdırma deyil, qeyd etdiklərimiz elə hamının eşitdiyi, oxuduğu bildiyi məsələlərdi, bu sadəcə baş verən hadisəni qısa izah və təhlildi. Çalışdıq ki, məsələnin əhəmiyyətindən söz açaq. Axı necə ola bilərdi ki, min bir əziyyətlə ərsəyə gələn bu dini Müaviyə, Yezid və onlar kimilər məhv edib, İslamdan bir quru ad saxlayaydılar. Allah son Peyğəmbərdən sonra ilahi hüccətlər silsiləsini ona görə davam etdirirki, son dini təhrif olmadan onlar qorusun. Bu imamətin missiyası, imamın yoludur. Əgər bu din bütün ixtilaflara, təfriqələrə baxmayaraq bir xəttə təhrif olmadan qorunubsa bu Allah hüccətlərinin vasitəsiylədir, qeybdə olan Hüccət də bu ilahi vəzifəni həyata keçirir. Onalr var deyə din incələr amma üzülməz ...

**Vəəsəlam!**